Azərbaycan.- 2023.- 22 fevral.S. 1; 8.

# Ermənistanda müdafiə nazirinin istefası tələb olunur

Ermənistanda həmişəki kimi yenə də silahlı qüvvələrdə böyük problemlər yaşanır. Ümumiyyətlə, buradakı durum erməni ordusunda qanunsuzluqların hökm sürdüyünü, korrupsiya və rüşvətxorluğun getdikcə daha geniş miqyas aldığını göstərir. Bunu sübut edən faktların sayı isə artmaqdadır. Məsələn, elə ötən ay Ermənistanın Basarkeçər rayonunun Azad kəndində N saylı hərbi hissənin mühəndis-istehkam bölüyünün kazarmasında yanğın baş verməsi, nəticədə 15 hərbçinin ölməsi, 6 əsgər və 1 zabitin yaralanması erməni ictimaiyyətində orduya inamsızlığı daha da artırıb.

Dünən yanğında ölən əsgərlərin yaxınları hökumət binası qarşısında etiraz aksiyası keçiriblər. Aksiya iştirakçılarının tələblərindən sonra onlar Nazirlər Kabinetində görüşə dəvət olunublar. Onlar övladlarının ölümünün təfərrüatlarına aydınlıq gətirilməsini tələb edirlər. Etirazçıların bəziləri isə müdafiə naziri Suren Papikyanın istefasında israrlıdır. Onlar nazirliyin binasında şüarlar səsləndirdikdən sonra eyni tələblərlə hökumət binası qarşısına toplaşıblar. Əsgər valideynləri Ermənistanın baş naziri Nikol Paşinyanla da görüş tələb ediblər.

8

# Ermənistanda müdafiə nazirinin istefası tələb olunur

*Əvvəli 1-ci səh.*

Aksiyada valideynlərin nümayəndəsi kimi çıxış edən vəkil Norayr Norikyanın jurnalistlərə verdiyi məlumata görə, etirazçılar övladlarının ölümü ilə bağlı rəsmi versiyaya inanmırlar. Onlar dərin və hərtərəfli araşdırma aparılmasını tələb edirlər. "Qohumlar baş nazirlə görüş, o cümlədən faciənin təfərrüatları və səbəblərindən tutmuş hadisənin başvermə şəraitinin aydınlaşdırılmasına məsul olan strukturların araşdırmalarına qədər olan prosesləri dəqiqləşdirməyi istəyirlər.

Vəkil qeyd edib ki, bizdə təkzibolunmaz məlumatlar var ki, gecə saat 00:15 və 00:30-da əsgərlərlə yaxınları arasında telefon bağlantıları olub, mesajlar gəlib. Ona görə də uşaqların 22:30-da yatdıqdan sonra yanıb ölmələri ilə bağlı açıqlama böyük mübahisə doğurur. O, xüsusi olaraq vurğulayıb ki, əgər bir və ya iki əsgər xilas edilibsə, qalan 15-ni niyə eyni qaydada kazarmadan çıxara bilməyiblər: "Bizə məlum olub ki, orada yanğından əvvəl sağ adam olmayıb. Baş verənlərə görə məsul şəxslər cavabdehdirlər və mən zərərçəkmişlərin qəyyumu kimi bu faciənin, cinayətin açılmasını tələb edirəm".

Postmüharibə dövründə baş verən bu kimi hallar Ermənistanda hərbi xidmətə çağırışda ciddi problemlərə səbəb olub. Gənclər ordudan yayınmağın yeni metodunu da tapıblar. Belə ki, indi Ermənistan gəncləri cinsi azlıqlara mənsub olduqlarını bildirərək hərbi xidmətdən yayınır, sonra isə ölkəni tərk edirlər.

Bu onu göstərir ki, Ermənistan ordusu təkcə çağırışçıların sayının sürətlə azalmasına görə problem yaşamır, bu ölkənin silahlı qüvvələrinin maddi-texniki təchizatında da əvvəlki kimi böyük çətinliklər mövcuddur. Eyni zamanda orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənməkdə davam edir.

Bütün bunların fonunda orduda hərbi qulluqçuların müxtəlif vəzifələrə təyin edilməsi üçün böyük miqdarda rüşvət verməli ilə bağlı qalmaqallar da baş verir. Sosial şəbəkələrdə paylaşılan məlumatlar onu göstərir ki, Ermənistan ordusunda rüşvətxorluq baş alıb gedir və Müdafiə Nazirliyi bunun qarşısını heç cür ala bilmir.

Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində zabitlərdən yuxarı vəzifəyə təyin olunmaq, tabor komandiri olmaq üçün 7 min, bölük komandiri vəzifəsinə təyin olunmaq üçün 2,5 min-4 min, müqaviləli hərbi xidmət üçün isə min-iki min ABŞ dolları məbləğində rüşvət tələb edildiyi bildirilir. Sosial şəbəkələrdə yazılan məlumatlarda o da iddia edilir ki, yerindən asılı olaraq qiymətlər dəyişilə bilər. Yəni "yaxşı" yerə təyinat almaq üçün yüksək məbləğdə rüşvət tələb olunur. Maraqlı odur ki, Ermənistan Müdafiə Nazirliyi həm rüşvətxorluq hallarına, həm də bununla bağlı yayılan məlumatlara heç bir reaksiya vermir.

Bu vəziyyətdə ermənilər üçün ən yaxşı çıxış yolu övladlarını orduda xidmətə göndərməkdən yayındırmaq, mümkün olduğu halda onları ölkə xaricinə qaçırmaqdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***